UOT 930; UOT 94(479.24)

AFİQ NADİROV
Azərbaycan Universitetinin doktorantı
aphig.nadirov@gmail.com

ƏHMƏD BƏY AĞAOĞLUNUN AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA YERİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/203-207

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan tarixinin öyrənilməsi vacib dövlərindəndir. Azərbaycanın Çar Rusiyasının tərkibində olması, Cümhuriyyət dövlətinin yaradılması, SSRİ-nin tərkibinə daxil olması, habelə Qafqazda milli və dini kimlik məsələsi, millətlərarası ədavət, erməni-müsəlman məsələsi, soyqırımı aktları və s. kimi məsələlər dövrün ən əhəmiyyət kəsb edən hadisələrindəndir. Bu dövrü öyrənməyin başlıca yolu mənbələrin müəyyən edilməsi və düzgün öyrənilməsidir. Dövrün ən aktual mənbələri dövri-mətbuat və ziyalıların yazdığı əsərlərdən ibarətdir. Tədqiqat obyektinin Əhməd bəy Ağaoğlu timsalında qoyulması ona geniş imkan yaradır ki, bu dahi şəxsin həyatı, fəaliyyəti və yaradıcılığı qeyd edilən məsələlərin əksəriyyətinə işıq tutmağa imkan verir. Bu baxımdan, xüsusən XX əsrin əvvəlləri tarixinin Ə.Ağaoğlu timsalında öyrənilməsi Azərbaycan tarixşünaslığına yeni töhfələr verəcəkdir.

Açar sözlər: Ə.Ağaoğlu, Azərbaycan tarixşünaslığı, tarixi şəxsiyyət.

Giriş. Əhməd bəy Ağaoğlu dövrünə görə fenomenal ziyalılardan biridir. Belə ki, haqqında danışıldığı zaman onu bir ifadə ilə adlandırmaq mümkün deyil, "ictimai, siyasi və dövlət xadimi, deputat, mütəfəkkir, müəllim, yazıçı, hüquqşünas, publisist, pantürkist, müsəlman intibahçısı, türk millətçisi, liberal" və s. kimi adlarla etiketləmək yerinə düşür.

Sayı-hesabı dəqiq bilinməyən yüzlərlə məqalənin müəllifi olan Ə.Ağaoğlu dövrünün populyar fransız, rus, fars, türk və ana dilində qiymətsiz əsərlər yaratmışdır. Onun yaradıcılığı da bu dillərlə birlikdə, bu dillərin vətənində mövcud olmuş "La Nouvelle Revue", "Journal des debats", "La Revue bleue", "Qafqaz", "Kaspi", "Sankt-Peterburskiye vedemosti", "Şərqi-Rus", "Həyat", "İrşad", "Tərəqqi", "Sirati-müstəqim", "Türk aləmi", "Türk yurdu", "Hakimiyyəti-milliyyə", "Cümhuriyyət", "Axın" və bu kimi digər qəzet və jurnallarda öz əksini tapmışdır [8, 385-386].

Ə.Ağaoğlunun həyat və yaradıcılığı qeyd edilən aspektlərdə kifayət qədər geniş şəkildə öyrənilmiş olsa da, tarixşünaslıq və mənbəşünaslıq baxımından kifayət qədər araşdırılmamışdır. Bu baxımdan, Ə.Ağaoğlunun qələmə aldığı əsərlərinin Azərbaycan tarixinin öyrənilməsinə, xüsusilə də mənbə kimi istifadə edilməsinə və nəhayət müstəqil tədqiqat obyektinə çevrilməsinə əsaslı zərurət yaranmışdır.

Ə.Ağaoğlunun fəaliyyətinin mühüm bir hissəsini XX əsrin əvvəllərində Bakı mərkəz olmaqla Azərbaycanın müxtəlif bölgələrində alovlanan erməni-azərbaycanlı (erməni-müsəlman adlandırılır) məsələsi və bu məsələnin tarixi köklərini araşdırıb aydınlaşdırmaq təşkil edir. O, 1905-ci il fevral ayında başlanan erməni-azərbaycanlı toqquşmasına münasibət bildirməklə qalmır, məsələni erməni ziyalıları ilə aydınlaşdırmağa çalışır, hər iki tərəf arasındakı ədavətin aradan qaldırılması üçün Çar məmurlarına müraciət edir və məsələni dinc yolla həll etməyə çalışırdı. Bununla kifayətlənməyən Ə.Ağaoğlu ədavətin tarixi köklərini araşdıraraq bir növ məsələnin tarixşünaslığını da bizlərə təqdim etmiş olur. Buna misal olaraq 29 noyabr 1902-ci ildə rusca nəşr edilən "Kaspi" qəzetində yazdığı "Qafqzada milli ədavət varmı?" adlı məqaləsini təqdim etmək olar ki, Ə.Ağaoğlu burada azərbaycanlılar, ermənilər və gürcülər arasında heç bir ədavətin olmamasını və onların birlikdə həmrəy yaşadığını qeyd edir [3, 29.11.1902, № 257]. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Ə.Ağaoğlunun millətlərarası ədavətin mümkün olmayacağını təxmin etməsi sadəcə onun millətlərarası münasibətlərə xoşniyyətli yanaşmağa çalışması ilə bağlı olmuşdur. Hətta o, millətlər arasında yarana biləcək ədavətin "kulturtreger" adlandırdığı hansısa "qüvvələrin" əli ilə ola biləcəyinin mümkünlüyünü az da olsa yazılarında ehtiva edirdi [7, 21]. Millətlərin sonrakı taleyi onu göstərdi ki, Ə.Ağaoğlu öz təxminlərində yanılmışdı və o, bu yanıltıdan 1905-ci illərin sonuna doğru xilas olaraq məsələlərin pərdə arxasını görməyə başladı.

Ə.Ağaoğlu "Kaspi", "Həyat","İrşad" və "Sankt-Peterburqskiye vedemosti" kimi qəzetlərdə Bakı hadisələrinə - erməni-müsəlman ixtilafına aid "Qafqazda milli ədavət varmı?" [3, 29.11.1902, № 257], "Qafqazda milli məsələ" [3, 21.11.1904, № 261], "Bizim rüsvayçılığımız" [3, 13.02.1905, № 22], "Böhtan" [3, 19.02.1905, № 27], "Bizim vəzifəmiz" [3, 15.02.1905, № 23], "Bakı hadisələri haqqında həqiqətlər" [4, 04.05.1905, № 97], "Məcburi cavab" [4, 11.05.1905, № 114], "Qafqazın hal-hazırı" [1, 10;19;21;29.06.1905, № 4;11;12;18], "Müsəlmanlar barəsində təzə bir iftira və böhtan və bu iftira və böhtan üzrə olunan qorxulu bir intriqa" [1, 14;16.06.1905, № 7;9], "Təbrik" [1, 04.08.1905, № 43] və s. kimi məqalələrlə çıxış edərək öz ziyalı mövqeyini ortaya qoymuşdur və bu məqalələrin hər biri XX əsrin əvvəllərində baş vermiş qanlı qırğın və soyqırımı aktlarının öyrənilməsində mühüm mənbə rolunu oynamaqdadır. Qeyd etmək lazımdır ki, istər 1905-1906-cı illər qırğınları olsun, istərsə də 1918-ci il soyqırımları, Ə.Ağaoğlu öz fəaliyyətinə görə heç də müsbət qarşılanmamış, əksinə dövri-mətbuatda kifayət qədər tənqidlərə də məruz qalmışdır.

Ə.Ağaoğlunun şəxsiyyətini daim düşündürən və onun yaradıcılığının qayəsini təşkil edən əsas məsələlərdən biri də Çar Rusiyası tərkibində yaşayan "müsəlman"ların aqibəti idi. O, "Kaspi", "Şərqi-Rus", kimi qəzetlərdə müsəlmanların hüquq və azadlıqlarına geniş yer ayırmış, daim onları müdafiə etmiş və geri qalan müsəlman ölkələrinin və xalqlarının Avropadan geriqalma səbəblərini araşdırmışdır. "Otuz milyonluq əhali" [5, 04.01.1904], "Yuxu yoxsa ölüm" [3, 05.09.1904], "Müsəlman söhbətləri" [3, 07.11.1904] və s. məqalələri ilə Rusiya imperiyası tərkibində yaşayan müsəlmanlar digər xalqlardan fərqli olaraq mədəni fəaliyyət (məktəb, mətbəə, xeyriyyə cəmiyyətləri, seminariyalar) növlərindən məhrum ediliblər. Bu səbəbdən də Ə.Ağaoğlu onları "imperiyanın ögey övladları" adlandırırdı.

Ə.Ağaoğlunun dini mövzularda ən çox məqalələr dərc etdiyi qəzetlərdən biri "Şərqi-Rus" qəzetidir. O, burada İslam dünyasında baş verən proseslər və müsəlman cəmiyyətlərində qadınların roluna dair fikirlərini ifadə etmişdir [10, 100].

Ə.Ağaoğlu islam aləmində geniş yayılmış cəhalət və mövhumata qarşı çıxdığına görə din xadimlərinin tənqid atəşinə hədəf olmuş və ölümə məhkum edilmişdir. Bu səbəblə, polis mühafiəzəsi altında altı ay öz evinə sığınmış və sonda H.Z.Tağıyevin işə qarışması ilə onu gözləyən ölüm hökmündən xilas ola bilmişdir.

Lakin Ə.Ağaoğlu bunlarla kifayətlənməmiş, 1915-ci ildə Türkiyədə "Rusiyadakı türk-tatar müsəlmanlarının hüquqlarının müdafiəsi" təşkilatını yaradaraq öz amalını davam etdirmişdir [13]. Onun İslam dininin müqəddəs kitabı olan "Qurani-Kərim"in və azanın latın qrafikasına, türk dilinə çevrilməsi fikri dövrünə görə olduqca radikal yanaşma idi. Qeyd etmək lazımdır ki, buna Azərbaycanda nail ola bilməsə də, bilavasitə Türkiyədə 1925-ci ildə Atatürkün "Qurani-Kərimi" sadə xalqın oxuyub anlaya bilmədiyi üçün tərcümə və təfsir etdirib, on min nüsxə ilə çap etdirməsi nəticəsində nail olmuşdur [11].

Müsəlman xalqlarının təəssübkeşi olan Ə.Ağaoğlu Lozannada keçirilən qeyri-rus xalqlarının konfransında Azərbaycan xalqının nümayəndəsi kimi iştirak etmişdir. Bundan başqa, 1905-1906-cı illərdə Rusiya müsəlmanlarının I, II, III qurultaylarının təşkilatçılarından biri olmuşdur [16, 114].

Ə.Ağaoğlunun müxtəlif qəzet səhifələrində dərc olunmuş məqalələrində və qələmə aldığı digər əsərlərində onun sülhpərvər və tolerant insan olduğunun şahidi oluruq. Bu baxımdan, Ə.Ağaoğlunu sülh tərəfdarı və ya Qafqazda milli sülhün ardıcıl tərəfdarı adlandırmaq olar [7, 22].

Ə.Ağaoğlunu Azərbaycan tarixşünaslığı üçün önəmli bir şəxsiyyətə çevirən məsələlərdən biri də milli kimlik – millətçilik – türkçülük ideyaları olmuşdur. Mətbuatda fəal iştirak edən Əhməd bəy Azərbaycanın birliyi, İslam dininin və imperiyanın unutdurmağa çalışdığı türkçülüyün doğru əsaslarla təbliği, təhsil sisteminin yeniləşməsi və inkişafı, təhsildə dünyəvi elmlərin tədrisi kimi ideyaları durmadan təbliğ edirdi [10, 446]. Ə.Ağaoğlu hələ Fransada təhsil aldığı zaman fransızların liberal millətçilik nəzəriyyələrini öyrənmiş və özünün millətçilik-türkçülük ideyalarını formalaşdırmışdır. O, ömrünün sonuna qədər öz millətinin yüksəlişi üçün çalışmış, qələminin bütün gücü ilə bu amala xidmət göstərmişdir. Milli düşüncənin formalaşmasında onun "Üç mədəniyyət", "Sərbəst insanlar ölkəsində" və s. kimi kitabları mühüm xarakter daşıyır.

Millətçilik ideyalarının formalaşmasında Ə.Ağaoğlu həmdövrü Əli bəy Hüseynzadə ilə eyni fikirlərə sahib olmuşdur. Təsadüfi deyildir ki, Əli bəy Hüseynzadə "türkçülük, islamçılıq, müasir-

lik" ideyasının, bu ideyanın isə daha sonra "bayrağa" çevrilməsinin müəllifi olmuşdur. Sözsüz ki, o, bu ideyanın qaynaqlarını Ə.Ağaoğlu və Cəmaləddin Əfqani ilə formalaşdırmışdır.

Ə.Ağaoğlunun millətçilik ideyalarının özündə təşəkkül tapdığı "İttihad və tərəqqi" və "Gənc osmanlılar" təşkilatları ilə əlaqələri Azərbaycanda "Difai" pariyasının qurulması ilə nəticələnmişdir [10, 447].

Ə.Ağaoğlu türkçülük haqqında fikirlərini "Millət və millətçilik" [6, 17.05.1909, №106], "Bizim millətçilər" [3, 25.09.1903], "Tulu edən ay parçası" [2, 22;23.03.1906, №74;75], "İslam və türk aləmi", "İttihad" və "Tərcüman", "Türk aləmi", "Yeni türklər və panislamizm",və s. məqalələrində şərh etmişdir [10, 112]. O, "Bizim millətçilər" məqaləsində yazır: "Millətçilik özlüyündə hörmətə layiq, hətta əzəmətli bir hadisədir, belə ki, o, xalqların həyatında zəruridir. Mən belə düşünürəm ki, bəşər təkamülü tarixində insan qəlbinin dindən sonra ikinci böyük tapınağı millətçilikdir. O, tarix boyu misilsiz hünərlər qaynağı olmuş və olacaqdır. Onsuz bir çox xalqlar hələ də özgələrin əsarəti altında inləyərdi və onun sayəsində çoxları hələ özlərinə çıxış yolu tapacaqlar" [3, 25.09.1903].

Ə.Ağaoğlu Azərbaycan xalqının milli intibahından danışarkən çarizm zülmünə və rus şovinizminə, mövhumat və fanatizmə, milli lovğalıq və milli ədavətə qarşı ardıcıl mübarizə aparmaq, siyasi və milli şüurun inkişafına, milli birliyə və mədəni tərəqqiyə nail olmaq və bir sıra amilləri onun əsas şərtləri kimi müəyyənləşdirmişdi.

Ə.Ağaoğlu bu fikirlərini silsilə şəkildə dərc etdirdiyi "Türk aləmi" adlı məqalələrində geniş şəkildə ifadə etmişdir [15, 212].

Ə.Ağaoğlunun "milli kimlik – millətçilik – türkçülük" ideyalarından danışarkən qeyd etmək lazımdır ki, "azərbaycançılıq" ideologiyası məhz bu ideyaların təkamülünün son mərhələsi olaraq ortaya çıxmışdır. Bu ideologiya əvvəlcə Azərbaycan xalqını Çar Rusiyasının istilasından xilas etməyə yönəlmiş, daha sonra Cümhuriyyət dövlətinin qurulmasına qədər öz məntiqi nəticələrini vermişdir.

Ə.Ağaoğlunun həyat və yaradıcılığının son illərinə (təxminən 1930-cu ildən başlayaraq) nəzər salsaq görərik ki, bu dövrdə artıq onun fikir və ideyaları da təkamül edərək özünün ali hədəfinə çatmaqdadır. Məntiqi ardıcıllıqla yaradıcılığının ilk dövrlərində Qafqazda və türk dünyasında müsəlmanların müqəddəratına geniş nəzər yetirən mütəfəkkir, yaradıcılığının yetkinlik dövründə milli və dini kimlik məsələlərinə çatır, son mərhələdə isə artıq xalqların millətləşmə, dövlətləşmə və bu mənada yaranan problemlərdən bəhs etməyə başlayır. Belə ki, ədibin yaradıcılığının məntiqi davamı və ya sonu türk dünyasında demokratik dövlət modeli, eləcə də demokratik idarəetmədəki problemlər, xalq hakimiyyəti, respublika haqqında ideyalardan ibarətdir.

1930-cu ildə çap etdirdiyi "Sərbəst insanlar ölkəsində" kitabında Ə.Ağaoğlu əslində görmək istədiyi, arzu etdiyi ədalətli bir dövlət – xalq hakimiyyəti, respublika haqqında ideyalarını irəli sürmüşdür. O burada dövlətin üç idarəetmə forması və respublika haqqında məlumat vermişdir [16, 114]. Bunların əsasında Ə.Ağaoğlunun respublika və demokratik quruluş tərəfdarı olduğunu söyləmək mümkündür. Müəllif bu əsəri respublika idarəetməsinin üstünlüklərini şərh etmək məqsədilə yazmışdır.

Nəticə. Son dövrlərdə Əhməd bəy Ağaoğlu yaradıcılığına maraq və diqqətin artmasının, onun əsərlərinin tədqiqat obyektinə çevrilməsinin əsas səbəblərindən biri dahi mütəfəkkirə dövlət səviyyəsində qiymət verilməsidir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd bəy Ağaoğlu Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir [12]. Bununla da, Ə.Ağaoğlu irsi yenidən aktuallıq qazanmış və Azərbaycan tarixşünaslığında öz adını ehtiramlı şəxsiyyət olaraq qızıl hərflərlə yazdırmağı bacarmışdır.

ƏDƏBİYYAT

1. "Həyat" qəzeti. 1905-ci il
2. "İrşad" qəzeti. 1906-cı il
3. "Kaspi" qəzeti. 1902-1905-ci illər
4. "Sankt-Peterburqskiye vedemosti" qəzeti. 1905-ci il

5. “Şərqi-Rus”, 4 yanvar 1904
6. “Tərəqqi”, 17 may 1909, №106
7. Əhməd bəy Ağaoğlu. Qafqazda milli məsələ. Məqalələr və sənədlər toplusu./ Tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi F.R.Cabbarov. - Bakı: Mütərcim, 2019. 276 s.
8. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007, 392 s.
9. Əhməd bəy Ağaoğlu: biblioqrafik göstərici /tərt.ed.: N.Cəfərova; S.Vurğun adına Sumqayıt ş. Mərkəzi Kitabxanası. - Sumqayıt, 2019. 72 s.
10. Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları. Bakı, 2-3 oktyabr 2019-cu il.
11. Abdullah Erdoğan. Atatürk’ün Kur’an-i Kerim’I Türkçeye Tercüme Ettirme, Hutbe ve Ezanı Türkçe Okutma Çalışmaları Hakkında İnceleme // Erciyes Akademi, Yıl: 2021, Cilt: 35, Sayı: 4, s.1409-1423. [Elektron resurs]. – URL: https://dergipark.org.tr/tr/pub/erciyesakademi/issue/66113/1001362 [30.11.2023].
12. “Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları”nın və “Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, Bakı şəhəri, 7 may 2019-cu il, №211. [Elektron resurs]. – URL: https://e-qanun.az/framework/42272 [30.11.2023].
13. Əhməd bəy Ağaoğlu: İran patriotu, pantürkçü, müsəlman islahatçı, türk millətçi və nəhayət liberal / BBC News Azərbaycanca, 19 may 2023. [Elektron resurs]. – URL: https://www.bbc.com/azeri/articles/cev4p99r95no [30.11.2023].
14. Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. Bakı, “Ərgünəş”, 2014, 264 s.
15. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, 1973.
16. Zeynalova T. XX əsrin əvvəllərində Azərbaycanda siyasi-hüquqi təlimlər. Dərs vəsaiti, Bakı: Mütərcim, 2021, 128 s.

АФИГ НАДИРОВ
Докторант Азербайджанского Университета

МЕСТО АХМЕД БЕКА АГАОГЛУ В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИОГРАФИИ

Конец XIX - начало XX века является важным периодом для изучения истории Азербайджана. Присоединение Азербайджана к Царской Росии, создание Республики, вхождение Азербайджана в состав СССР, а также национальные и религиозные вопросы, межнациональные розни, армяно-мусульманский вопрос, акты геноцида являются самыми важными и значимыми событиями. Для изучения этого периода необходимо знать и уточнить источник, а также правильно изучать все события. Самым актуальными источниками являются периодическая пресса, а также произведения видных деятелей просвещения. Объектом исследования является жизнь и деятельность Ахмед бека Агаоглу. А это даёт полную возможность для освещения жизни, деятельности и творчества известного просветителя и политика. С этой точки зрения , изучение истории XX века в лице Ахмед бека Агаоглу может внести новый весомый вклад в науку историковедении Азербайджана.

Ключевые слова: А.Агаоглу, азербайджанская историография, историческая личность.

AFIQ NADIROV
Doctoral student of Azerbaijan University

AHMED BEY AGAOGLU'S PLACE IN AZERBAIJANI HISTORIOGRAPHY

The end of the 19th century - the beginning of the 20th century is one of the important periods for studying the history of Azerbaijan. The fact that Azerbaijan is a part of Tsarist Russia, the

establishment of a republic, its inclusion in the USSR, as well as the issue of national and religious identity in the Caucasus, inter-ethnic enmity, the Armenian-Muslim issue, acts of genocide, etc. such issues are among the most important events of the period. The main way to study this period is to identify and properly study the sources. The most relevant sources of the period consist of periodicals and works written by intellectuals. Setting the object of research in the image of Ahmet Bey Agaoglu gives him a wide opportunity to shed light on most of the mentioned issues of the life, activity and creativity of this genius. In this regard, studying the history of the beginning of the 20th century in the example of A. Agaoglu will make new contributions to Azerbaijani historiography.

Keywords: A.Agaoglu, Azerbaijani historiography, historical personality.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Anar İsgəndərov.